# Milli Məclis Əli Əsədovun Baş nazir vəzifəsinə təyin olunmasına razılıq verdi

**Oktyabrın 8-də Milli Məclis payız sessiyasının növbəti plenar iclasını keçirib. Parlament ilk öncə Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Əli Hidayət oğlu Əsədovun Baş Nazir vəzifəsinə təyin edilməsinə razılıq verilməsi barədə məsəlni müzakirə edib.**

Sədr Oqtay Əsədov baş nazir Novruz Məmmədovun vəzifədən getməklə bağlı ölkə prezidenti İlham Əliyevə müraciət etdiyini bildirib. O.Əsədov Novruz Məmmədova can sağlığı arzu edərək, xidmətlərinə görə təşəkkür edib.

Bundan sonra Milli Məclisin Sədri Oqtay Əsədov Ə. Əsədovun hakim Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü olduğunu, həmçinin, onun bir zamanlar millət vəkili kimi parlamentdə fəaliyyət göstərdiyini xatırladaraq bildirib ki, ”Əli Əsədov hansı vəzifədə çalışmasından asılı olmayaraq öz bilik və bacarığını işə sərf edən insandır. Əminəm ki, Prezident İlham Əliyevin bu seçimi dövlətimiz, xalqımız üçün uğurlu olacaq. Hörmətli Əli Əsədov Baş nazir vəzifəsini layiqincə yerinə yetirəcək”.

Sonra iclasda məsələ ilə bağlı çıxışlar olub. Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Siyavuş Novruzov Əli Əsədovu Baş Nazir vəzifəsinə namizədliyinin irəli sürülməsi ilə bağlı təbrik edərək bildirdi ki, ”Əli Əsədov Avropa-Azərbaycan iqtisadi münaibətlərinin qurulmasında, qanunvericiliyimizin Avropa standartlarına uuğunlaşdırılmasında yaxından iştirak edib. Onun Ulu öndərin, eləcə də Azərbaycan prezidentinin köməkçisi kimi xidmətləri var. Əli Əsədov Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsində işçi qrupunun rəhbəri olub. Bununla yanaşı, onun Azərbaycan üçün vacib layihələrdə xidmətləri olmaqla yanaşı, ölkə başçısının yaxın köməkçisi kimi kənd təsərrüfatının, iqtisadi sektorda həyata keçirilən islahatlarda mühüm payı var”.

”Əli Əsədovun yeni baş nazir vəzifəsinə təyin edilməsi yerində verilən qərardır”. Bu fikirləri isə Milli Məclisin deputatı Hikmət Məmmədov parlamentin pelnar iclasında çıxış edərkən deyib.

Azərbaycan iqtisadiyyatının uğurlu inkişaf yolu keçdiyini deyən deputat söyləyib ki, iqtisadiyyatımızın hazırkı məhlədəki inkişafı yeni perspektivlər yaradır: ”Bu perspektivlərin və iqtisadiyyatda daha dərin islahatların həyata keçirilməsi üçün dəyişikliyə ehtiyac var idi: ”Hesab edirəm ki, Əli Əsədov bu fəaliyyətin öhdəsindən layiqincə gələcək. Çünki, o mühüm ideyaların realizə edilməsində xüsusi rola malikdir”.

Deputat qeyd edib ki, fəaliyyətinin bütün mərhələlərində Əli Əsədov səmimi pedaqoq kimi davranmağı bacarıb: ”Bu, çox mühüm insani keyfiyyətdir”.

Millət vəkili Vahid Əhmədov Ə. Əsədovun Azərbaycan iqtisadiyyatının inkişafına töhfə verəcəyinə inandığını qeyd edib. Bununla yanaşı deputat Ə.Əsədova təkliflərini də bildirib: ”Biz komitələrdə, parlamentdə müzakirələr zamanı təkliflər veririk. Baş Nazirdən xahiş edirəm ki, millət vəkillərinin təkliflərinə diqqət yetirilsin. İkincisi, Prezident İlham Əliyev son illər iqtisadi inkişafla bağlı ciddi addımlar atır. Prezidentin hədəflərindən biri iqtisadiyyatın inkişafının neft deyil, qeyri-neft sektorunun inkişafından asılı olmasına çalışır. Qeyri-neft sektorunda müəyyən inkişaf olsa da, bu, yetərli deyil. Mən Baş Nazir kimi sizdən qeyri-neft sektorunun, sənayenin inkişafına diqqət yetirməyi xahiş edirəm. Üçüncüsü, Hesablama Palatası büdcə layihələrinə ciddi iradları olur, o iradlara və millət vəkillərinin təkliflərinə diqqətlə yanaşmağı xahiş edirəm. Digər tərəfdən, büdcə layihəsi həcmcə çox böyük olur, məncə 100 səhifəlik layihə kifayətdir”.



Çıxışlardan sonra parlament Əli Əsədovun Azərbaycanın Baş Naziri vəzifəsinə təyin olunmasına razılıq verib.

Səsvermədən sonra çıxış edən Əli Əsədov ona göstərilən bu yüksək etimada görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib. Əli Əsədov qeyd edib ki, ”müasir Azərbaycan müstəqillik illərində mürəkkəb və şərəfli yol keçib. Dahi şəxsiyyət, ulu öndər Heydər Əliyev 1990-cı illərin əvvəllərində Azərbaycanı böhran vəziyyətindən qurtarıb və real müstəqilliyimizi inkişaf etdirib. Bu gün Prezident İlham Əliyevin səyi nəticəsində ölkəmiz sürətli inkişaf yolu keçir. Qazanılan möhtəşəm nailiyyətlər Azərbaycan Prezidenti İlham Əliyevin əməyinin nəticəsidir. Bu dövr ərzində ölkəmizdə ümum daxili məhsul 3,3 dəfə artıb, iqtisadiyyata qoyulan investisiyaların həcmi 270 milyard dollara çatıb, yoxsulluğun səviyyəsi 5 faizə, işsizlik səviyyəsi 4,9 faizə enib. Ölkənin strateji valyuta ehtiyatları 26 dəfə artaraq 49 milyard dollara çatıb. Eyni zamanda, əhalinin sayı 2019-cu ildə 10 milyon nəfərə çatıb. Dövlətimizin başçısının rəhbərliyi ilə ”Azəri-Çıraqlı-Günəşli”, ”Şahdəniz”, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars kimi meqalayihələr gerçəkləşdirilib. Bununla yanaşı, neft gəlirlərinin qeyri-neft sektoruna yönəldilməsi bu sahənin də inkişafında ciddi nailiyyətlər qazandırır. Qeyri-neft sənayesi 2,4 dəfə artıb. Azərbaycan kosmik ailənin üzvü olub”.

”Bu gün ölkənin əsas problemi doğma Qarabağımızın işğal altında qalmasıdır. Ermənistan rəhbərliyinin məsuliyyətsiz, populist çıxışlarına Prezident İlham Əliyev tərəfindən layiqli cavab verilib: ”Qarabağ tarixi və əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”. Qarabağın işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün hərbi qüdrətimizin artırılması Prezidentin gündəlik fəaliyyətinin əsas prioritetlərindəndir”, - deyə Əli Əsədov bildirib.

Əli Əsədov deyib ki, son illərdə ölkəmizdə sosial problemlərin həlli istiqamətində böyük uğurlar əldə edilib, sosial müdafiə sistemi beynəlxalq standartlara uyğun yenidən qurulub, sosial yardım və müavinətlər artırılıb. Uğurlu sosial siyasət nəticəsində əməkhaqqı 2,4 dəfə, pensiya isə 3 dəfə qaldırılıb.

Ölkə rəhbərliyi Vətənin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhid ailələri, müharibə əlilləri, xüsusi qayğıya ehtiyacı olan şəxsləri, o cümlədən məcburi köçkünləri, ahılları, uşaqları daim diqqət mərkəzində saxlayır. Bu insanlara Birinci vitse-prezident Mehriban Əliyeva məhəbbət və mərhəmətlə dolu qayğı göstərir. Azərbaycanın dayanıqlı və çoxşaxəli inkişafı dövlətin bütün qollarının ahəngdar və bərabər fəaliyyətindən asılıdır.

**”Bu gün bu yüksək tribunada, Azərbaycan xalqının hüzurunda, hörmətli deputatlar, sizin qarşınızda çıxış edərək Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirəcəyimə söz verirəm”, - deyə o bildirib.**

**Nicat Novruzoğlu**

Ədalət 2019.- 10 oktyabr.- S.2.